


# Strateji müttəfiqliyin uğur formulu

## *Azərbaycanla Türkiyə arasında əməkdaşlıq çoxvektorludur*

*Azərbaycan-Türkiyə əlaqələri ulu öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslanır. 2021-ci il iyunun 15-də "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması dünyaya bir daha nümayiş etdirdi ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır.*

Məhz həmin gün dini, dili, tarixi, mədəniyyəti və məqsədi bir olan Azərbaycan-Türkiyə münasibətlərində yeni inkişaf mərhələsi başladı.

Azərbaycan və Türkiyə arasında enerji sahəsində əməkdaşlıq gün keçdikcə daha da möhkəmlənir. Bu əlaqələrin ən önəmli göstəricilərindən biri olan İğdır-Naxçıvan qaz kəməri iki ölkə arasında strateji tərəfdaşlıq çərçivəsində həyata keçirilən Bakı-Tbilisi-Ərzurum və TANAP-dan sonra üçüncü layihədir. Bu layihə Naxçıvan Muxtar Respublikasının qaz təminatını sabit və etibarlı bir mənbədən qarşılayaraq onun enerji təhlükəsizliyini təmin edəcək.

**(davamı 3-cü səhifədə)**

# Strateji müttəfiqliyin uğur formulu

## *Azərbaycanla Türkiyə arasında əməkdaşlıq çoxvektorludur*

(əvvəli 1-ci səhifədə)

Hazırda Naxçıvan qazla Azərbaycan və İran arasındakı svop müqaviləsi əsasında təmin olunur, lakin İğdır-Naxçıvan xəttinin inşası ilə bu asılılıq aradan qalxacaq. Layihə həm Azərbaycanın enerji müstəqilliyini gücləndirəcək, həm də Türkiyə ilə iqtisadi bağları daha da möhkəmləndirəcək.

Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən 2023-cü il sentyabrın 25-də təməli qoyulan İğdır-Naxçıvan qaz boru kəmərinin açılışı olacaq. Prezident İlham Əliyevin Türkiyəyə səfəri çərçivəsində hər iki prezident canlı bağlantı vasitəsilə İğdır-Naxçıvan qaz boru kəmərinin açılış mərasiminə qatılacaq. Beləliklə, Türkiyədən Naxçıvana təbii qazın ixracına başlanılacaq. Türkiyənin əsas qaz tədarükçülərindən olan Azərbaycan, həm də qardaş ölkə vasitəsilə Naxçıvan Muxtar Respublikasının "mavi yanacaq"la təchizatı probleminin həlli üçün yeni fürsət qazanıb. Xatırladaq ki, hazırda muxtar respublikanın illik qaz istehlakı 260-300 milyon kubmetr ətrafındadır. Bu isə mövcud tələbatdan bir qədər azdır. Mühüm infrastruktur layihəsi olan İğdır-Naxçıvan qaz kəmərinin fəaliyyətə başlaması ilə Naxçıvanın qaz təchizatında əhəmiyyətli dəyişikliklər baş verəcək.




İğdır-Naxçıvan qaz kəməri Naxçıvanın qaz təchizatının şaxələndirilməsinə imkan verməklə onun bir mənbədən asılılığını aradan qaldırmış olacaq. 2020-ci il dekabrın 15-də Ankarada Azərbaycan və Türkiyə arasında İğdır-Naxçıvan qaz kəmərinin tikintisinə dair anlaşma memorandumu imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci il 10 fevral tarixli Sərəncamına əsasən isə İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisi üçün dövlət büdcəsindən vəsait ayrılıb. Layihə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın prioritet layihələri sırasında yer alıb.

Boru kəmərinin İğdırdan Sədərək rayonuna qədər uzunluğu 97,5 kilometr təşkil edir. Kəmərin Azərbaycan hissəsinin uzunluğu 17,5, Türkiyə hissəsinin uzunluğu isə 80 kilometrdir. Boru kəməri gündə 2 milyon, ildə isə 730 milyon kubmetr qaz ötürmək qabiliyyətinə malikdir ki, bununla da Naxçıvanın qaza tələbatı tamamilə ödəniləcək. Gələcəkdə boru kəmərinin ötürücülük qabiliyyətini iki dəfədən çox artırmaq mümkündür.

Onu da qeyd edək ki, qədim Azərbaycan torpağı olan Naxçıvan Yer kürəsində həyatın başlandığı ilk insan məskənlərindən biridir. Azərbaycan xalqı bu diyarda qədim və zəngin mədəniyyət yaratmışdır. Naxçıvan eyni zamanda dünyanın ən qədim mədəniyyət mərkəzlərindəndir. Bu torpaqda Azərbaycan xalqının zəngin tarixi, elmi və mədəni irsi formalaşmışdır. Naxçıvan bütün tarixi dövrlərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi mövcud olmuşdur. Qədim yurd yerimiz Zəngəzurun Ermənistana verilməsindən sonra Naxçıvan Azərbaycanın digər torpaqlarından ayrı salınaraq blokadaya alınmışdır. Lakin bütün bunlara baxmayaraq, Naxçıvan bu gün yüksək inkişafa nail olan diyardır. Dünya elm və mədəniyyətinə bir sıra görkəmli şəxsiyyətlər bəxş edən Naxçıvan, həm də böyük dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Vətənidir.

Hələ 2008-ci ilin iyun ayında Azərbaycan Prezidenti İlham Əliyevlə həmin vaxt Türkiyənin Baş naziri olan Rəcəb Tayyib Ərdoğanın eyni vaxtda Naxçıvana səfəri çərçivəsində müzakirə etdikləri məsələlərdən biri də Naxçıvan Muxtar Respublikasına Türkiyədən qaz xəttinin çəkilməsi olmuşdu. Səfərlə bağlı jurnalistlərin suallarını cavablandıran Prezident İlham Əliyev Azərbaycanın Türkiyəyə təbii qazın ixracının artmasından sonra bu ölkə vasitəsilə Naxçıvana da qaz ötürüləcəyini bildirmişdi: "Bildiyiniz kimi, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin işə düşməsindən və Azərbaycan qazının Türkiyə bazarlarına daxil olmasından sonra, xüsusilə gələcəkdə bu qazın həcminin artımından sonra Türkiyənin Naxçıvanla həmsərhəd olan bölgələrinə də təbii qazın verilməsi nəzərdə tutulur. Əlbəttə ki, bu layihənin təbii davamı olaraq, Naxçıvanın bu xəttə birləşməsi də mümkündür. Bu məsələ müzakirə olundu və müvafiq tapşırıqlar verilmişdir".

Artıq 2010-cu ildə Naxçıvana qaz xəttinin çəkilməsi ilə bağlı Anlaşma Memorandumu imzalanmışdı. Lakin ötən müddət ərzində kəmərin tikintisinə başlanılması mümkün olmamışdı. Belə hesab olunur ki, Türkiyə təbii qaza ehtiyacını bir neçə ölkədən idxal hesabına ödəsə də, burada bir mənbədən daha çox asılılıqdan irəli gələrək qiymətin yüksək olması Naxçıvana "mavi yanacaq" ötürülməsinə imkan vermir. Lakin son illərdə istər TANAP-ın istismara verilməsi, istərsə də qardaş ölkənin LNG idxalını artırması Türkiyənin qaz bazarında vəziyyəti dəyişdirib. Bakı-Tbilisi-Ərzurum və TANAP vasitəsilə Türkiyəyə qaz ixracını həyata keçirməkdə olan Azərbaycanın qardaş ölkənin qaz bazarında payı artırmaqla Naxçıvana qaz nəqli üçün də şərait yaradır. Həmçinin Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi Naxçıvana Türkiyə üzərindən qaz nəqlini texniki cəhətdən də mümkün edir.

Azərbaycanla Türkiyə arasında iqtisadi sahədə əməkdaşlıq çoxvektorludur. Enerji sektorunda əməkdaşlıq iki ölkə arasında iqtisadi əlaqələrin mühüm qolunu təşkil edir. İndiyədək Azərbaycan və Türkiyənin birgə səyləri sayəsində bir neçə nəql marşrutunun yaradılması iki ölkə arasında enerji sektorunda fəal əməkdaşlığın göstəricisidir. Ötən əsrin 90-cı illərinin sonlarında Xəzər və Qara dənizləri birləşdirən Bakı-Supsa neft kəmərinin istifadəyə verilməsi enerji resurslarının nəql marşrutlarının şaxələndirilməsi baxımından çox mühüm əhəmiyyət daşıyan hadisə idi. Daha sonra 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan kəməri istifadəyə verildi. Bu gün Bakı-Tbilisi-Ceyhan Azərbaycan neftinin Avropa bazarlarına daşınması üçün əsas nəql marşrutudur. Əlamətdar haldır ki, bu gün Bakı-Tbilisi-Ceyhandan digər ölkələr də faydalanırlar. 2007-ci ildə Azərbaycan və Türkiyənin iştirakı ilə daha bir nəql marşrutu - Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara buraxılıb. Bakı-Tbilisi-Ərzurum istifadəyə verilsə də, "Şahdəniz" yatağının zəngin ehtiyatlarının Avropaya çatdırılması üçün daha böyük həcmli yeni dəhlizin yaradılmasına ehtiyac var idi. Yeni daha böyük həcmli marşrut kimi yenə də qardaş Türkiyədən keçən Cənub Qaz Dəhlizi seçilib.

Cənub Qaz Dəhlizinin ən mühüm seqmentlərindən birini Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) təşkil edir. TANAP kimi önəmli layihənin icrasına heç də asanlıqla nail olunmayıb. Başlanğıcda layihənin icrasına həm siyasi, həm də praktiki müstəvidə bir sıra əngəllər var idi. Belə olan halda qardaş ölkələr - Azərbaycan və Türkiyə bütün məsuliyyəti öz üzərlərinə götürüblər və həlledici qərarlar veriblər. Beləliklə, TANAP layihəsi ilə bağlı Azərbaycan ilə Türkiyə arasında anlaşma memorandumu 2011-ci il dekabrın 24-də, Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair saziş 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb və hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənib. Layihə üzrə yekun investisiya qərarı isə 2013-cü il dekabrın 17-də qəbul edilib. 2015-ci ildə Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə Qarsda keçirilən təməlqoyma mərasimindən sonra boru kəmərinin inşasına başlanılıb və bütün işlər nəzərdə tutulan vaxtda uğurla yekunlaşıb. Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) inşası tamamlandı. 2021-ci ilin əvvəlindən başlayaraq Xəzərin Azərbaycan sektorundan çıxarılan "mavi yanacaq" Türkiyədən keçməklə Avropa ölkələrinə çatdırılır.



**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2025.- 5 mart (№ 49).- S.1;3.